

*DAYANDUR SEVGİN*

# *ALİ BAŞ KOMANDANIM*

**Mənim doğma yurdumda bu hayların nə işi,
İçimdəki bu dərdlə haçanacan utanım.
Dönüm sənin başına dayandırma atəşi,
Şərəfi olmayanla sülh olmaz KOMANDANIM.**

**Ürəklərdə nalədi, qulaqlarda top səsi,
Qaramat zindan idi azad olan ruhumuz.
İndi-indi düzəlir belimizin əyrisi,
İçimizdə boy verib dikəlir qürurumuz.**

**Könlüm toxdu özgənin torpağında gözüm yox,
Tanrıdan gələn payım beş-üç səslə dəyişməz.
Bel bir atəşkəsə vallah indi lüzum yox,
Donuzun donuzluğu atəşkəslə dəyişməz.**

**Otuz ildi ah-vayla keçib dəqiqəm, anım,
Düşünmüşəm hər kəsin Tanrıdan qisməti var.
Bu tayfaya  inanma ALİ BAŞ KOMANDANIM,
İçində gəzdirdiyi erməni xisləti var.**

**Səs salıbdı dünyaya yazıq, yazıq səsi ilə
Türkiyədi yağdırır başıma dron deyir.
Əl açır Liderlərə, həminki hiyləslə,
Gah Trampa yalvarır, gahda ki, Makron deyir.**

**Bir dağın zırvəsində dönüm VƏTƏN daşına,
Torpağımı bəzəsin mənim də şəhid qanım.
Dayandırma atəşi, dönüm sənin başına,
Allah köməyin olsun ALİ BAŞ KOMANDANIM.**